# ZIGBEE MİNİ SERVER (ZigBee Mini Hub)

## Məhsul haqqında: TEZLİKLƏ...

ZigBee Mini Server ilə internet üzərindən ZigBee bazası əsasında çalışan aktuator, dimmer və ağıllı prizlərə qoşulan 100-lərlə işqlanma qurğuları effektli şəkildə idarə olunur. ZigBee - simsiz çalışan bir protokol olaraq bütün sistem cihazlarını bir-birinə bağlayaraq torşəkilli şəbəkə formalaşdırır. Buna görə bir ZigBee cihazı sıradan çıxanda digərləri fasiləsiz işləməyə davam edir.
Hər yeni cihaz ZigBee Mini Server vasitəsi ilə xüsusi kodlaşma tələb etmədən şəbəkədə digər cihazları avtomatik tapıb, onlara keçid əldə edir və şəbəkəyə qoşulur. Cihazlar ikitərəfli əlaqəni dəstəkləyir və real zamanda işıqların, pərdələrin, sensorların və s. statusunu təyin etməyə imkan verir.



| Texniki parametirlər: | EL-G100ZW |
|---|---|
| Enerji mənbəyi: | DC 5V/1A |
| İşçi tezliyi: | 2.4Ghz |
| Simsiz şəbəkə standartı: | IEEE 802.15.4 |
| İşləmə kanalları: | 11,14,15,19,20,24,25 |
| Modulyasiya rejimi: | OQPSK |
| Simsiz otürmə gücü: | <18dBm |
| Simsiz qəbuledicinin həssaslığı: | <-90dBm |
| Şifrələmə rejimi: | AES-128bit |
| Əlaqə süräti: | 250Kbps |
| Kommunikasiya protokolu: | Zigbee HA |
| Şəbəkə rejimi: | Zigbee avtomatik tanınan şəbəkə |
| Ölçüləri: | 88 x 90 x 27 mm (UxExH) |

# ZIGBEE IR İDARƏETMƏSİ (ZigBee IR Remote Control)

## Məhsul haqqında:

ZigBee IR uzaqdan idarəetmə cihazı kondisioner, TV, DVD player və bu kimi digər məişət texnikasını ağıllı telefon və tablet vasitəsi ilə idarə etmək üçün nəzərdə tutulmuşdur. Bu, sistemin ayrılmaz komponentidir. IR kodlar tanıtdırıldıqdan sonra istifadəçi asanlıqla ağıllı telefon və ya tabletdə məişət cihazlarını idarə edə bilir. Bir toxunuşla birdən artıq cihazı idarə etmək üçün ssenarilər qurula bilər. 38KHZ modulyasiya tezliyində çalışan IR ev cihazını dəstəkləyir. 360° IR ötürücü bucağı cihazın yüksək həssaslıq və dəqiqliklə işləməsinə imkan verir. Minlərlə IR kodun yaddaşda saxlanması mümkündür. Divara və ya tavana montaj etmək olar.



| Texniki parametirlər: | EL-IR200ZW |
|---|---|
| Enerji mənbəyi: | AC 100-240V, 50Hz |
| Güc istehlakı: | <0.3W |
| IR: | 38KHz |
| İşçi tezliyi: | 2.4Ghz, IEEE 802.15.4 |
| Simsiz otürmə gücü: | <20dBm |
| Simsiz qəbuledicinin həssaslığı: | <-90dBm |
| Şifrələmə rejimi: | AES-128bit |
| Kommunikasiya protokolu: | Zigbee HA |
| Şəbəkə rejimi: | Zigbee avtomatik tanınan şəbəkə |
| Əhatə dairəsi: | 200 $m^2$ |
| İşləmə temperaturu: | -20 ~ +60°C |
| İşləmə rütubəti: | 80% |
| Ölçüləri: | 110 x 33 mm (DxH) |